*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2010-cu il 6 may tarixli 10/49-2 saylı Qərarı ilə təsdiq edilmiş və 2015-ci il 25 may tarixli 10/86-2 saylı Qərarı ilə dəyişiklik edilmişdir.*

*Razılaşdırılmışdır:*

| | |
|---|---|
| *Azərbaycan Respublikası*<br>*Mərkəzi Bankının sədri* | *Azərbaycan Respublikası*<br>*Mərkəzi Seçki Komissiyasının sədri* |
| ___________________*E.S.RÜSTƏMOV* | __________________ *M.M.PƏNAHOV* |

# Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə xüsusi seçki hesablarının açılması qaydaları haqqında

# T Ə L İ M A T

Bu Təlimat Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 91-ci və 157-ci maddələrinə əsasən hazırlanıb və “Banklar haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə siyasi partiyaların, siyasi partiyalar bloklarının və deputatlığa namizədlərin xüsusi seçki hesablarının açılması qaydalarını müəyyən edir.

## 1. Ümumi müddəalar

1.1. Xüsusi seçki hesabı namizədin irəli sürülməsi barədə dairə seçki komissiyasına bildiriş təqdim edildikdən sonra 5 gün müddətində namizədin qeydiyyatı üçün zəruri olan seçici imzalarının yığılmasına azı 24 saat qalmış açılmalıdır.

1.2. Namizədlər üçün vahid seçki fondu yaratmaq niyyətində olan siyasi partiyalar, siyasi partiyalar blokları birmandatlı seçki dairələrinin 60-dan çoxunda irəli sürülən namizədlərin siyahısını Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) təqdim etdikdən sonra 5 gün müddətində vahid seçki fondunu formalaşdırmaq üçün xüsusi seçki hesabı açırlar.

1.3. Xüsusi seçki hesabı yalnız Azərbaycan Respublikasının Beynəlxalq Bankında və ya onun filiallarında açılmalıdır.

## 2. Xüsusi seçki hesabının açılması üçün aşağıdakı sənədlər müvafiq şəxslər tərəfindən banka təqdim edilməlidir:

**2.1. Namizəd özü və ya seçicilərin təşəbbüs qrupu tərəfindən irəli sürüldükdə, namizədin özü və ya onun səlahiyyətli nümayəndəsi:**

2.1.1. xüsusi seçki hesabının açılması üçün ərizə;
2.1.2. xüsusi seçki hesabının açılması üçün müraciət edənin şəxsiyyətini təsdiq edən sənəd;
2.1.3. namizədliyin irəli sürülməsi barədə bildirişin dairə seçki komissiyası tərəfindən təsdiq edilmiş surəti;
2.1.4. Seçki Məcəlləsinin 53-cü maddəsinin tələbinə uyğun tərtib edilmiş deputatlığa namizədliyi irəli sürülmüş şəxsin məhkumluğuna, vətəndaşlığına və başqa dövlətlər qarşısında öhdəliyinə dair məlumatlar, habelə deputat seçiləcəyi halda həmin vəzifə ilə uzlaşmayan fəaliyyətinə xitam verəcəyi barədə öhdəliyi göstərilmiş ərizə;
2.1.5. namizədin səlahiyyətli nümayəndəsinin (əgər səlahiyyətli nümayəndə təyin edilibsə) notariat qaydasında rəsmiləşdirilmiş vəkalətnaməsi;
2.1.6. notariat qaydasında təsdiq edilmiş imza nümunəsi vərəqəsi (xüsusi seçki hesabı üzrə əməliyyat aparan şəxsin).
**Qeyd:** *Təlimatın 2.1.4-cü bəndində göstərilən sənəd bank tələb etdikdə təqdim edilir.*

**2.2. Namizəd siyasi partiya tərəfindən irəli sürüldükdə, həmin siyasi partiyanın maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi:**
2.2.1. xüsusi seçki hesabının açılması üçün ərizə;
2.2.2. siyasi partiyanın qeydə alınması barədə şəhadətnamənin notariat qaydasında təsdiq edilmiş surəti;
2.2.3. siyasi partiyanın qüvvədə olan nizamnaməsinin notariat qaydasında təsdiq edilmiş surəti;
2.2.4. namizədin irəli sürülməsi barədə siyasi partiyanın qurultayının (konfransının, rəhbər orqanı iclasının) qərarı və müvafiq iclasın protokolu;
2.2.5. Seçki Məcəlləsinin 54-cü maddəsinin tələbinə uyğun tərtib edilmiş deputatlığa namizədliyi irəli sürülmüş şəxsin məhkumluğuna, vətəndaşlığına və başqa dövlətlər qarşısında öhdəliyinə dair məlumatlar, habelə deputat seçiləcəyi halda həmin vəzifə ilə uzlaşmayan fəaliyyətinə xitam verəcəyi barədə öhdəliyi göstərilmiş razılıq ərizəsi;
2.2.6. namizədliyin irəli sürülməsi barədə bildirişin dairə seçki komissiyası tərəfindən təsdiq edilmiş surəti;
2.2.7. siyasi partiyanın maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada rəsmiləşdirilmiş vəkalətnamələri;
2.2.8. notariat qaydasında təsdiq edilmiş imza və möhür nümunələri vərəqəsi.
**Qeyd:** *Təlimatın 2.2.3-2.2.5-ci bəndlərində göstərilən sənədlər yalnız bank tələb etdikdə təqdim edilir.*

**2.3. Namizəd siyasi partiyalar bloku tərəfindən irəli sürüldükdə, həmin siyasi partiyalar blokunun maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi:**
2.3.1. xüsusi seçki hesabının açılması üçün ərizə;

2.3.2. namizədliyin irəli sürülməsi barədə bildirişin dairə seçki komissiyası tərəfindən təsdiq edilmiş surəti;

2.3.3. siyasi partiyaların blokuna daxil olan siyasi partiyaların qurultaylarının (konfranslarının, rəhbər orqanı iclasının) namizəd irəli sürmək barədə qərarları ilə birlikdə müvafiq iclasların protokolları;

2.3.4. siyasi partiyaların blokuna daxil olan siyasi partiyaların nümayəndələri iclasının (qurultayının, konfransının) siyasi partiyaların bloku adından namizəd irəli sürülməsi haqqında qərarı və müvafiq iclasın protokolu;

2.3.5. Seçki Məcəlləsinin 54-cü maddəsinin tələbinə uyğun tərtib edilmiş deputatlığa namizədliyi irəli sürülmüş şəxsin məhkumluğuna, vətəndaşlığına və başqa dövlətlər qarşısında öhdəliyinə dair məlumatlar, habelə deputat seçiləcəyi halda həmin vəzifə ilə uzlaşmayan fəaliyyətinə xitam verəcəyi barədə öhdəliyi göstərilmiş razılıq ərizəsi;

2.3.6. maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndənin notariat qaydasında və ya Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada təsdiq edilmiş vəkalətnamələri;

2.3.7. notariat qaydasında təsdiq edilmiş imza və möhür nümunələri vərəqəsi.

**Qeyd:** *Təlimatın 2.3.3-2.3.5-ci bəndlərində göstərilən sənədlər yalnız bank tələb etdikdə təqdim edilir.*

3. Yuxarıda göstərilən sənədlər təqdim edildikdə müvafiq bank namizədə, siyasi partiyaya, siyasi partiyalar blokuna dərhal, lakin 3 gündən artıq olmayan müddətdə xüsusi seçki hesabı açmalıdır. Bütün pul vəsaiti xüsusi seçki hesablarına manatla köçürülür.

4. Xüsusi seçki hesabının vəsaitlərinə sərəncam vermək hüququ namizədin özü, onun təyin etdiyi səlahiyyətli nümayəndə və yaxud siyasi partiya və ya siyasi partiyalar bloku tərəfindən təyin edilmiş maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə tərəfindən həyata keçirilir.

5. Namizədlər, siyasi partiya, siyasi partiyalar bloku yalnız bir xüsusi seçki hesabı aça bilərlər.